## ƏDƏBİYYAT VƏ FOLOKLOR

**UOT 47.82**
**https://doi.org/10.59849/2218-4783.2024.2.196**

**FƏRMAN XƏLİLOV**

# HÜSEYN RAZİNİN ƏDƏBİ-TƏNQİDİ VƏ ELMİ PUBLİSİSTİK MƏQALƏLƏRİ

*Görkəmli Azərbaycan şairi H.Razinin (1924-1998) bədii əsərləri ilə yanaşı ədəbi-tənqidi və elmi-publisistik məzmunlu məqalələri də ədəbi irsinin dəyərli nümunələridir. Bu məqalələrin əksəriyyəti əməkdaşı olduğu "Şərq qapısı" qəzetində, bir qismi isə Bakıda nəşr olunan "Ədəbiyyat və incəsənət", "Kommunist", "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri", "Möhtəşəm Azərbaycan", "Azərbaycan pioneri", "Sovet kəndi", "Bakinskiy raboçiy" adlandırılan qəzetlərdə, "Azərbaycan", "Elm və həyat", "Kənd həyatı", "Literaturnıy Azerbaydjan" kimi jurnallarda, həmçinin bəzi kitab və almanaxlarda dərc olunmuşdur.*

*Məqalədə H.Razinin Azərbaycan klassik ədəbiyyatına və müasir ədəbi prosesə, xüsusilə Naxçıvan ədəbi mühitində yetişən şair və yazıçıların yaradıcılığına həsr olunan ədəbi-tənqidi və elmi-publisistik məqalələri təhlil olunur, H.Razinin ədəbi-tənqidi görüşləri və jurnalistlik səriştəsi haqqında dolğun elmi təsəvvür yaradılır.*

*Müəllif belə qənaətə gəlir ki, H.Razinin ədəbi-tənqidi və elmi-publisistik məzmunlu məqalələrinin ən mühüm əhəmiyyəti müasirlərinin maariflənməsində və dünyagörüşülərinin genişlənməsində oynadığı roldur.*

**Açar sözlər***: Hüseyn Razi, Naxçıvan ədəbi mühiti, ədəbi-tənqidi və elmi-publisistik məqalələr, klassik ədəbiyyat, müasir ədəbi proses.*

**Giriş.** H.Razinin ədəbi-tənqidi və elmi-publisistik məqalələri nəinki şairin öz yaradıcılığı, həm də müasir Azərbaycan ədəbiyyatşünaslığı üçün dəyərli töhfələrdir. 1949-1993-cü illər ərzində yazılan bu məqalələrdə folklordan başlamış qədim dövr, orta və XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının klassikləri və müasir şair və yazıçılarınadək söz açılmış, onların yaradıcılığı haqqında dəyərli mülahizələr söylənilmişdir.

H.Razinin ilk ədəbi-tənqidi məqalələrində, xüsusilə rus və digər dünya yazıçıları haqındakı yazılarında təsvirçilik və informativ ruh analitik təhlili üstələyirdi. Lakin qələmi püxtələşdikcə və məlumat dairəsi genişləndikcə o, bir tədqiqatçı və ədəbiyyatşünas səriştəsilə məqalələrinin elmi səviyyəsini yüksəldə bildi.

**Klassik irsin dəyərləndirilməsi.** H.Razinin N.Gəncəvi, M.Füzuli, F.Nəimi, İ.Nəsimi, M.P.Vaqif, S.Ə.Şirvani, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Əli Nəzmi, Əbdürrəhim bəy Haqverdiyev, M.S.Ordubadi, C.Cabbarlı və S.S.Axundova həsr etdiyi "Nadir poeziya inciləri". [1, № 685], "Məhəmməd Füzulinin lirikasında estetika motivləri" [1, № 440], "Nəsiminin ustadı" [1, № 447], "Nəsiminin üsyanı" [1, № 563], "Bəşəri duyğular şairi" [1, № 515], "Maarifpərvər şair" [1, № 843], "Görkəmli alim və yazıçı" [1, № 840], "Mütəfəkkirin məzarı önündə" [1, № 456], "Onu zəmanə yaratmışdı" [1, № 705], "Böyük satira ustası" [1, № 713], "Satira ustası" [1, № 436], "Görkəmli sənətkar" [1, № 439], "Qürətli sənətkar" [1, № 721], "Dramaturgiyamızın iftixarı" [1, № 786], "Görkəmli yazıçı" [1, 424] sərlövhəli məqalələrini oxuduqca aydın olur ki, o, bu sənətkarların həyatı və mühitindən söz açarkən, dünyagörüşü və əsərlərinin mahiyyətindən bəhs edərkən, fəaliyyəti və yaradıcılığını dəyərləndirərkən tarixilik və müasirlik meyarlarını əsas götürmüşdür.

Realizmin səciyyəvi xüsusiyyətləri, romantizmin estetikası və poetikasına bələd olan

H.Razi C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Haqverdiyev və digər realist sənətkarlarla yanaşı, M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət kimi romantik sənətkarlara həsr etdiyi "Romantik poeziya ustadı" [1, № 673], "Humanizm və yüksəliş romantikası" [1, № 699], "Ömürdən səhifələr" [1, № 724], "Böyük romantika dünyası" [1, № 746], "Vətənpərvər şair" A.Səhhət" [1, № 443] adlı məqalələrində güclü ümumiləşdirmələr aparmaqla, diqqəti onların əsərlərinin incəliklərinə yönəltməklə yaradıcılıqlarının səciyyəvi xüsusiyyətlərini və Azərbaycan ədəbiyyatındakı mövqeyini oxuculara çatdırmağa səy göstərmişdir.

H.Razinin ayrı-ayrı şair və yazıçılara həsr olunan yazılarında ədəbi şəxsiyyət, onun yaradıcılıq istiqaməti, əsərlərinin ideyası, xəlqiliyi, müasirliyi, bədii məziyyətləri və digər xüsusiyyətləri daha qabarıq şəkildə oxuculara təqdim edilir. H.Razinin məqalələri göstərir ki, o, ədəbiyyat tarixçiliyi və ədəbiyyat nəzəriyyəsi baxımından ayrı-ayrı tədqiqatçıların araşdırmalarının elmi nəticələrinə, toxunduğu mövzularla bağlı müxtəlif məqalə, kitab və monoqrafiyalara yaxşı bələddir. Fikrimizi onun ayrı-ayrı məqalələrindən gətirdiyimiz aşağıdakı nümunələr təsdiq edir: "Keçən əsrin ortalarında Azərbaycanın Bakı, Şamaxı, Quba, Şuşa, Lənkəran və başqa şəhərlərində "Məcmüə-şüəra", "Beytüs-Səfa", "Gülüstan", "Fövcülfüsəha", "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinin fəaliyyət göstərdiyi görkəmli ədəbiyyatşünaslardan Firudin bəy Köçərli və Feyzulla Qasımzadənin tədqiqatlarından bizə məlumdur" [9]; "1928-ci ildə türk alimi Tələt Onay tərəfindən tapılmış, 1933-cü və 1946-cı illərdə iki dəfə İstanbulda nəşr edilmiş "Dastani-Əhməd Hərami" əsəri ədəbiyyatımızda poema janrının ilk nümunələri sırasına daxildir. Türk alimi bu əsərin Azərbaycan dilində yazıldığını təsdiq etmiş, Azərbaycan alimlərindən H.Araslı, Y.Seyidov, F.Zeynalov, T.Hacıyev və başqaları bu tarixi abidənin ideyası, bədii keyfiyyətləri, dil və üslub xüsusiyyətləri haqqında maraqlı mülahizələr söyləmişlər" [7].

**Müasir ədəbi prosesə münasibət.** Azərbaycan ədəbiyyatı tarixinə, 1920-ci ildən sonra meydana çıxan "sovet ədəbiyyatı"nın mahiyyətinə yaxından bələd olması H.Razinin ədəbi-tənqidi məqalələrində toxunduğu məsələlərə obyektiv mövqedən yanaşmağa imkan vermişdir. Bu baxımdan onun müasir Azərbaycan şair və yazıçılarından Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Xəlil Rza, Balaş Azəroğlu, Bəxtiyar Vahabzadə, Əliağa Kürçaylı, Nəbi Xəzri, Nərman Həsənzadə, Mustafa İskəndərli, Cəmil Əlibəyov, Mirzə İbrahimov, Mehdi Hüseyn, İmran Qasımov, həmçinin Naxçıvan ədəbi mühitinin yetirmələrindən İslam Səfərli, Məmməd Araz, Hüseyn Əzim, Əliheydər Qənbərov, Adil Babayev, Zeynal Vəfa, Adil Qasımov, Elmira Qasımova, Əliyar Yusifli, Əvəz Sadıq, Nağı Nağıyev, Hüseyn İbrahimov və Rüstəm Behrudiyə həsr etdiyi məqalələr diqqətəlayiqdir. Bu yazılar H.Razinin müasir ədəbi prosesi ardıcıl olaraq izlədiyini göstərməklə yanaşı, həm də bu prosesi özünəməxsus yanaşma tərzi ilə dəyərləndirməsini nümayiş etdirir.

H.Razi ədəbi-tənqidi və elmi-publisistik məqalələrində təkcə müxtəlif nəsillərə mənsub olan şair və yazıçıların əsərlərindən bəhs etməklə kifayətlənmir, həm də öz vətəndaşlıq mövqeyini nümayiş etdirirdi. "Yüksək vətəndaşlıq mövqeyi hamıdan saflıq, mənəvi ucalıq tələb edir" [10] deyən H.Razinin haqqında bəhs etdiyi sənətkarların fəaliyyətini və əsərlərini dəyərləndirərkən vətəndaş-ziyalı mövqeyi özünü onda göstərirdi ki, o, həmin sənətkarların fikir və mülahizələrinə yaşadığı dövrün qəliblənmiş tələbləri baxımından yox, sərbəst və xalq mövqeyindən obyektiv şəkildə münasibət bildirirdi: "Xalq sevgisinə, xalqın arzu və istəklərinə güvənməyən hökmranlıq məhvə məhkumdur" [2].

Onun bu mövqeyi şeirlərində də açıq-aşkar özünü büruzə verir. X.Rzanın təbirincə

desək: “Hər şeiri H.Razinin vətəndaşlıq mövqeyini, öz xalqının adından danışmağa mənəvi hüquq qazanmış bir insanın qürurunu göstərir” [11].

Araşdırmalardan aydın olur ki, H.Razinin ədəbi-tənqidi və elmi-publisistik məqalələri digər məqamlarda da şeirləri ilə bir-birini tamamlayır. Bu, daha çox onun öz etirazlarını bildirən məqamlarla bağlıdır. “Təpədən dırnağa bir etirazam”, deyən şairin yaşadığı cəmiyyətdəki pisliklərə qarşı qaldırdığı narazılıq və etiraz səslərini məqalələrindən də eşitmək olur. Bu mənada onun N.Gəncəvi, M.Füzuli, M.Ə.Sabir, C.Məmmədquluzadə və digər sənətkarlardan bəhs edərkən onların əsərlərində diqqətin “zülmə və zülmkara qarşı müqavimət, insanın dinc və rahat yaşaması naminə igidlik motivlərinin ön plana çəkilməsi”, “eyş-işrətə qızışıb öz xalqını unudan, rütbə sahiblərinə ibrət dərsi verilməsi”, ”xalqı əsarətdə saxlamağa çalışan hökumət başçılarına qarşı kəskin satira atəşi yağdırılması”, “zorakılıq məddahlarına qarşı lənətlər yağdırılması”, “əsrin amansız mühitinə qarşı kəskin etiraz ifadə olunmasına” ”[1, № 578, 713, 742, 755] yönəldilməsini təsadüfi hesab etmirik. Şairin şeirlərində də bu fikirlərini xatırladan misralar az deyil:

Özündən zəkalını zor gücünə atından
Düşürən dahi deyil…
Yalanla, saxta sözlə barışan dahi deyil! [6, s. 155].
Rütbə kəndirbazı bir gün sürüşür,
Kosası bir yana, özü bir yana [6, s. 154].
Bir rəzalət kaşanəsi qurublar,
Məhvərindən silkələyib yıxan yox [6, s. 149].
Bugünkü həmzələr amansız, harın,
Adi at oğrusu deyildir onlar.
Bu gün həmzələrin, həsənxanların
Ölkəni talamaq təhlükəsi var [6, s. 121].
Xeyrin meydanında at oynatdı şər,
Fikrə, düşüncəyə qələm çəkdilər [6, s. 52].

H.Razi hətta müəyyən hallarda etirazını lazımi qulaqlara çatdırmaq üçün qəsdən qıcıqlandırıcı söz və ifadələri məqalələrinin sərlövhəsinə çıxarmışdır: “Nəsiminin üsyanı” [1, № 563], “Aşıq Ələsgərin etirazı”, [1, № 569], “Fikirlərin üsyanı” [1, № 766], “Haqsızlar haqlı deyil” [1, № 778], “Ədalətin təntənəsi” [1, № 777] və s.

H.Razi Naxçıvanda nəşr olunan “Şərq qapısı” qəzetinin redaksiyasında 30 ilədək ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Bu müddət ərzində o, həmin qəzetin səhifələrində, demək olar ki, hər il, bəzən isə ildə iki, yaxud üç dəfə Naxçıvan ədəbi mühitində imzası təzə-təzə tanınan gənc yazarların şeir və hekayələrini dəyərləndirən, yaradıcılıq yollarında onlara bəzi faydalı tövsiyələrini verən icmallar da dərc etdirmişdir.

“Misralar və imzalar” (1973, 1975), “Söz ürəkdən gələndə” (1974, 1976, 1985, 1988), “Sözün məna dəyəri”, “Söz və keyfiyyət” (1975, 1983), “Şeir yazmaq asan deyil” (1976, 1977), “Tələbkarlıq da qayğıdır” (1977, 1980), “Misralar sorağında” (1978, 1980, 1982), “Poetik vüsət olmadıqda” (1980), “Dolğun səs, solğun həvəs” (1979,1982, 1983, 1984), “Şeir yazmaq hüququ” (1981), “Dolğun və solğun misralar” (1983, 1986), “İşıqlı və solğun misralar” (1976), “Duru və quru sətirlər” (1977), “Maraq, yoxsa istedad” (1985), “Yaxşı misralar sorağında” (1986), “Günün səsi, yaratmaq həvəsi” (1985, 1987), “Gözəl misralar sorağında” (1990) adlandırılan bu icmallarda H.Razi Naxçıvanın müxtəlif bölgələrindən – Şərur, Ordubad, Culfa, Şahbuz, Babək rayonları və Naxçıvan şəhərində yaşayan gənc yazarların redaksi-

yaya göndərdikləri şeir və hekayələrini təhlil etmiş, müəlliflərin uğurlarını alqışlamış, eyni zamanda əsərlərinin bəzi qüsurlarını onların diqqətinə çatdırmışdır.

“Naxçıvan şəhərindən Arif Mehdiyevin “Yol”, Şərurdan İbrahim Yusifoğlunun “Qayıtmışam”, Budaq Təhməzovun “İşıqlı adamlar”, Şahbuz qəsəbəsindən Elmira Rüstəmovanın “Batabat meşəsi”, “Sənət beşiyim” adlı şeirlərində təzə fikirlər, dolğun misralar, orijinal təsvir və ifadə vasitələri nəzərdən qaçmır. Bu müəlliflər daha səmərəli çalışmaqla qələmə aldıqları mövzuların ictimai dəyərinə, bədii ümumiləşdirmənin daha əhatəli və təsirli olmasına fikir verməlidirlər” [3].

Babək rayonunun Nehrəm kəndindən Səfəralı Məmmədovun “Dağlar”, Ordubad rayonunun Gənzə kəndindən Rafiq Əliyevin “Sevgi nəğməli oxuyur Araz”, “Nağıl”, “Beləcə yaşayır dünyasız adam” adlı şeirləri də maraqlıdır. Bu yazılarda da səmimi duyğular özünü göstərir” [5].

“Müəlliflərə bir daha xatırlatmaq lazım gəlir ki, bu günün şeirində fikirlərin, sözlərin təzəliyi, məna aydınlığı təsvir vasitələrinin əlvanlığı, dilin rəvan və axıcı olması, misraların ahəngdarlığı, epitetlərin orijinallığı, tərənnüm və təsvirin səmimiliyi əsas şərtdir” [4].

Həmin icmallarda H.Razinin poeziya və ümumiyyətlə, bədii yaradıcılıqla bağlı özünəməxsus orijinal mülahizələri də əks olunmuşdur: “Söz ürəkdən gəlməlidir. Söz ürəkdən gələndə özünün bədii vüsəti, təsir gücü, səmimiyyəti, məna dəyəri, ideya istiqaməti ilə seçilir və müəllifini sevdirir. Söz ürəkdən gələndə şeirə çevrilir, arzu və istəklərin tərcümanı olur, ümumi işə kömək göstərir, özünün cazibə qüvvəsi ilə könülləri fəth edir” [8].

Bu icmallar o dövr üçün Naxçıvan ədəbi mühitində ədəbi tənqidin dəyərli nümunələri sayılmağa layiqdir.

H.Razi yaşadığı sovet dönəmində və ondan sonra SSRİ və dünya yazıçılarının, ədəbiyyat və incəsənət xadimlərinin fəaliyyətini, yaradıcılığını qiymətləndirən və təbliğ edən məqalələr də yazmışdır.

Bir qismi “Bizim təqvim” rubrikası altında, digərləri isə xüsusi sərlövhələrlə (“Görkəmli yazıçı və ictimai xadim”, “Mübariz yazıçı”, “Alovlu ürək”, “Dostluq nəğməkarı”, “Görkəmli satira ustası”, “Türkmən ədəbiyyatının ağsaqqalı”, “Böyük dostluq poeziyası”, “Bəşəri fikirlər romantikası”, “Tarixi romanlar ustası” və s.) dərc olunan həmin yazılar öz aktuallığı ilə diqqəti cəlb edir. Belə məqalələri yazmaq bir tərəfdən onun əməkdaşı olduğu “Şərq qapısı” qəzetinin tələblərindən irəli gəlirdisə, digər tərəfdən şairin istedadlı sənətkarlara rəğbətini əks etdirmək üçün idi. Ən başlıcası isə İ.A.Qonçarov, K.Xetaqurov, Y.Raynis, T.Şevçenko, V.Q.Belinski, V.Mayakovski, A.Barbüs, M.Qorki, N.Nekrasov, N.Q.Çernışevski, A.Qaydar, A.P.Çexov, A.Kunanbayev, S.Şedrin, V.Vereşşagin, A.Blok, T.Drayzer, A.Tolstoy, D.Bednı, S.Stalski, V.Gete, A.S.Puşkin, V.Latsis, Y.Sudrabakaln, Ə.Cami, A.Sereteli, V.Panova, D.Y.Pisarev, P.Ştenberq, K.Rıleyev, S.N.Sergeyev-Tsenski, K.Simonov, P.Verseqora, S.Neyman, M.İsakovski, F.Panfyorov, Q.Tuqay, Con Rid, A.Novikov, V.Katayev, B.Polevoy, U.Dyuba, Y.Fuçik, V.Y.Lebedev-Kumaç, N.Barataşvili, Y.Libxedinski, L.Sobalyev, A.N.Radişşev, Y.Kotlyarevski, M.Nekse, N.N.Aseyev, L.Leonov, İ.Krılov, S.Yesenin, V.İvanov, M.Sadovyan, V.İnber, L.Paelre, A.Tvardovski, M.Tursunzadə, V.Vorovski, Y.Kupala, J.Amadu, A.Straşmirov, M.Tank, A.Tafurov, M.Mayerev, Y.Qalan, A.Malışka, N.Hikmət, M.Ruyman, M.Svetlov, B.Brext, B.Conson, A.Mitskeviç, S.Mixalkov, A.Kazbeqi, R.Həmzətov, B.Kerbabayev, M.Şoloxov, M.Tixonov, Cek London, A.Qrin, Əbu Əli Sina, İ.Erenburq, İ.Franko, M.Lomonosov, S.Vasilyev, K.Fedin, O.Bomarşe, F.Qladkov, A.Çukovski, Məhtimqulu Fərqani, D.Kobalevski, A.Dovjenko, M.Y.Lermontov, Ə.Lahuti, Ç.Aytmatov, L.N.Tolstoy, A.Axmatova kimi elm,

ədəbiyyat və incəsənət xadimlərinin timsalında oxucuları dünya ədəbiyyatı və mədəniyyəti ilə tanış etmək məqsədi güdülürdü.

**Rəylər, resenziyalar.** H.Razinin ayrı-ayrı nəşriyyatlar tərəfindən çap olunan kitablara yazdığı rəyləri, ədəbiyyat, incəsənət və mədəniyyətə dair məqalələri də ("Azərbaycan sovet ədəbiyyatında xalqlar dostluğu məsələsi" (1954), "Qardaş gürcü ədəbiyyatında vətənpərvərlik mövzuları" (1961), "Əbədi qardaşlıq ədəbiyyatı" (1972), "Kino sənətimizin təntənəsi" (1979). elmi səviyyəsi ilə diqqəti cəlb edir.

Onun yazdığı rəylərin bir qismi şair və yazıçıların müxtəlif nəşriyyatlar tərəfindən çap olunmuş kitablarına (N.Nağıyev. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1967, Z.Vəfa. Çinarım mənim. Bakı: Azərnəşr, 1968, Ə.Qəmbər. Ürək. Bakı: Azərnəşr, 1971, M.Çərkəz. Ağ çiçəklər. Bakı: Azərnəşr, 1973, H.Əzim. Dübəndi çayı. Bakı: Azərnəşr, 1973, H.İbrahimov. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1974, K.Ağayeva. Sən olmasaydın. Bakı: Azərnəşr, 1974, A.Babayev. Ümid sərvəti. Bakı: Azərnəşr, 1977, Ə.Kürçaylı. Bütövlük. Bakı: Azərnəşr, 1978, E.Qasımova. Axtar, tap məni. Bakı: Yazıçı, 1979, M.İskəndərzadə. Çinarlı baharım. Bakı: Yazıçı, 1980, X.Rza. Taparam səni. Bakı: Yazıçı, 1980, A.Qasımov. Dağlar, qalalr. Babalar. Bakı: Yazıçı, 1980, Z.Vəfa. Körpələrin xatirinə. Bakı: Yazıçı, 1981, A.Mikayılov. Kəhkəşanlı mavi səma. Bakı: Gənclik, 1982, R.Behrudi. Yaddaşlara yazın. Bakı: Yazıçı, 1986) aiddir. Bu rəylərdə həm tanınmış məşhur şair və yazıçıların, həm də gənc yazarların kitablarına daxil edilən əsərləri təhlil olunur və dəyərləndirilir. H.Razi adı çəkilən kitablar haqqında tənqidi qeydlərini də müəlliflərin nəzərinə çatdırır.

Bu rəylər həm də onu təsdiqləyir ki, H.Razı nəinki Naxçıvan ədəbi mühitində, eyni zamanda Azərbaycan səviyyəsində müasir ədəbi prosesi izləyir və bəzi problemlərə öz münasibətini bildirməyi vacib hesab edirdi.

H.Razinin rəylərinin digər qismi isə elmi və publisistik xarakterli kitab və monoqrafiyalara (İ.Əsədullayev. Naxçıvan MSSR Ədəbiyyat muzeyi. Bakı, 1970, N.Nərimanov. Məqalələr, nitqlər. Bakı: Azərnəşr, 1971, T.Əhmədov. Nəriman Nərimanovun dramaturgiyası. Bakı: Elm, 1971, İ.Şıxlı. Cəbhə yolları. Bakı: Gənclik, 1975, Atalar sözü. Tərtib edən Ə.Hüseynzadə. Bakı: Yazıçı, 1981, N.Zamanov. Düşündürən naxışlar. Bakı: Yazıçı, 1981, Ə.İldırımoğlu. Yazım, yazmayım. Bakı: Yazıçı, 1982, Aşı mollanın, başı mollanın. Tərtib edən Ə.Hüseynzadə. Bakı: Yazıçı, 1983, N.Tusi. Əxlaqi-nasiri. Bakı: Elm, 1990) həsr olunub. Həmin rəylər fərqli mövzu dairəsinə malikdir. Hər bir rəydə haqqında bəhs olunan kitab, yaxud monoqrafiyanın mahiyyəti üzərində daha çox dayanılır, onların elmi və tərbiyəvi əhəmiyyəti dəyərləndirilir, oxucularda həmin kitablara maraq oyatmağa cəhd edilir.

H.Razinin Naxçıvan teatrında, həmçinin M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrı, M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrı, Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı, C.Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrı, M.Davudova adına Mingəçevir Dövlət Dram Teatrı, Cavid Poeziya Teatrı və Naxçıvan tibb məktəbinin "Gənclik" teatrının Naxçıvanda göstərdiyi aşağıda siyahısını verdiyimiz əsərlərin tamaşalarına yazdığı resenziyaları onu həm də teatr aləmindən yaxşı xəbərdar olan bir mütəxəssis kimi səciyyələndirir. Naxçıvan teatrının təqdimində: S.Rəhman. "Əliqulu evlənir", "Toy", Z.Xəlil. "Qatır Məmməd", H.Cavid. "Şeyx Sənan", F.Axundov. "Qanlı çinar", K.Fiqereydo. "Ezop", M.İbrahimov. "Yaxşı adam", C.Məmmədov. "Dan ulduzu", C.Cabbarlı. "Yaşar", Ş.Qurbanov. "Sənsiz", R.Heydər. "Bahar qız", Ə.Yusifov. "Məhəbbət abidəsi", X.Əlibəyli. "Dovşanın ad günü", İ.Əfəndiyev. "Məhv olmuş gündə-

liklər", B.Vahabzadə. "Ədalət", "Yağışdan sonra", İ.Qasımov. "Nağıl başlananda", S.Vurğun. "Vaqif", M.Dumbadze. "Darıxma, ana", Sofokl. "Antiqona", "Elektra", C.Məmmədquluzadə. "Ölülər", İ.Şıxlı. "Kosaoğlunun səhvi", O.Kamal. "Yad qızı". Digər teatrların təqdimində: B.Vahabzadə. "Fəryad", "Leyli və Məcnun" (opera), "Əsli və Kərəm" (opera), Ə.Abbasov. "Səndən mənə yar olmaz", H.Cavid. "Azər", M.Arazın şeirləri əsasında hazırlanmış "Azərbaycan, dünyam mənim", M.İbrahimov. "Kəndçi qızı", V.Şekspir. "Üçüncü Riçard", M.Əlizadə. "Dağ çiçəyi".

H.Razi öz resenziyalarında adı çəkilən əsərlərin səhnə təcəssümü haqqında peşəkar bir teatrşünas kimi söz açır. Onların ideyası, tamaşalardakı rejissor işi, aktyor oyunu, musiqi və bədii tərtibat məsələlərini dəyərləndirir, eyni zamanda tamaşalarda müşahidə etdiyi bəzi qüsurları da diqqətə çatdırır.

**Nəticə.** Buraya qədər deyilənlər H.Razinin ədəbi-tənqidi və elmi-publisistik məqalələrinin mövzu dairəsinin nə dərəcədə zəngin və rəngarəng olduğunu nümayiş etdirir. Onun məqalə və rəylərinin ən mühüm əhəmiyyəti müasirlərinin maariflənməsində və dünyagörüşülərinin genişlənməsində oynadığı roldur.

## ƏDƏBİYYAT

1. Hüseyn Razi. Biblioqrafiya / Tərtib edəni F.Xəlilov. Naxçıvan: Əcəmi, 2015, 304 s.
2. Razi H. Azər düşünür. "Sovet Naxçıvanı" qəz., 1984, 29 mart.
3. Razi H. Dolğun və solğun misralar. "Sovet Naxçıvanı" qəz., 1986, 20 dekabr.
4. Razi H. Fikirlərin, sözlərin təzəliyi. "Şərq qapısı" qəz., 1989, 10 noyabr.
5. Razi H. Gözəl misralar sorağında. "Şərq qapısı" qəz., 1990, 23 oktyabr.
6. Razi H. Gözün aydın. Bakı: Azərbaycan, 1996, 232 s.
7. Razi H. İlk poemalardan biri. "Şərq qapısı" qəz., 1978, 26 oktyabr.
8. Razi H. Söz ürəkdən gələndə. "Sovet Naxçıvanı" qəz., 1988, 22 iyun.
9. Razi H. Şeirə dönmüş nalələr. "Şərq qapısı" qəz., 1990, 3 yanvar.
10. Razi H. Vətəndaşlıq mövqeyi. "Sovet Naxçıvanı" qəz., 1988, 1 iyul.
11. Rza X. H.Razi "Ayrılmaram". "Kommunist" qəz., 1981, 21 aprel.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: elyazmalar_institutu@yahoo.com***

**Farman Khalilov**

## LITERARY-CRITICAL AND SCIENTIFIC-PUBLICIST ARTICLES OF HUSSEIN RAZI

In addition to the artistic works of the well-known Azerbaijani poet H.Razi (1924-1998), valuable examples of his literary heritage are also literary-critical and scientific-journalistic articles. Most of these articles were published in the newspaper "Sharg Gapysy", of which he was an employee, and some of them were published in Baku in the newspapers "Literature and Art", "Communist", "Azerbaijani Teacher", "Azerbaijani Youth", "Great Azerbaijan", "Azerbaijani Pioneer", "Soviet Village", "Baku Worker", in the magazines "Azerbaijan", "Sci-

ence and Life”, “Rural Life”, “Literary Azerbaijan”, as well as in some books, and almanacs. The article analyzes the literary-critical and scientific-publicist articles of H.Razi, dedicated to the classical literature of Azerbaijan and the modern literary process, especially the work of poets and writers who grew up in the literary environment of Nakhchivan, and creates a complete scientific picture of the literary-critical views and journalistic competence of H.Razi. The author comes to the conclusion that the most important significance of the literary-critical and scientific-publicist articles of H.Razi lies in the role they played in the education of his contemporaries and the expansion of their worldview.

**Keywords:** *Hussein Razi, literary milieu of Nakhchivan, literary-critical and scientific-publicist articles, classical literature, modern literary process.*

**Фарман Халилов**

## ЛИТЕРАТУРНО-КРИТИЧЕСКИЕ И НАУЧНО-ПУБЛИЦИСТИЧЕСКИЕ СТАТЬИ ГУСЕЙНА РАЗИ

Помимо художественных произведений известного азербайджанского поэта Г.Рази (1924-1998), ценными образцами его литературного наследия являются также литературно-критические и научно-публицистические статьи. Большая часть этих статей была опубликована в газете «Шарг гапысы», сотрудником которой он был, а некоторые из них были опубликованы в Баку в газетах «Литература и искусство», «Коммунист», «Азербайджанский учитель», «Азербайджанская молодежь», «Великий Азербайджан», «Азербайджанский пионер», «Советское село», «Бакинский рабочий»; в журналах «Азербайджан», «Наука и жизнь», «Сельская жизнь», «Литературный Азербайджана», а также в некоторых книгах и альманахах. В статье анализируются литературно-критические и научно-публицистические статьи Г.Рази, посвященные классической литературе Азербайджана и современному литературному процессу, особенно творчеству поэтов и писателей, выросших в литературной среде Нахчывана, и создается полная научная картина литературно-критических взглядов и публицистической компетентности Г.Рази.

Автор приходит к выводу, что важнейшее значение литературно-критических и научно-публицистических статей Г.Рази состоит в той роли, которую они сыграли в воспитании своих современников и расширении их мировоззрения

**Ключевые слова:** *Гусейн Рази, литературная среда Нахчывана, литературно-критические и научно-публицистические статьи, классическая литература, современный литературный процесс.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxil olma tarixi: İlkin variant 13.09.2024**
**Son variant 02.10.2024**